Həftəlik
Bülleten



098

04 İyul 2025

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

“Bakı Ağ Şəhər”də 5 hektara yaxın ərazidə “Özbəkistan” parkı yaradılacaq.

Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev iyulun 2-də Bakıda “Özbəkistan” parkının təməlini qoyublar.

“Özbəkistan” parkı böyükmiqyaslı mədəni-rekreasiya layihəsidir. Burada Özbəkistanın, o cümlədən Daşkənd, Səmərqənd, Buxara, Xivə və Kokand regionlarının zəngin tarixini, memarlığını və mədəniyyətini əks etdirəcək nadir mühit yaradılacaq. Sahəsi 5 hektar olacaq park Özbəkistanın xəritəsi formasında salınacaq. Burada muzey, kinoteatr, amfiteatr, qüllə, Özbəkistanın milli mətbəx nümunələrinin təqdim olunacağı restoran və kafelər, ticarət zonası, suvenir və hədiyyələr mağazaları, zoopark, mehmanxana da fəaliyyət göstərəcək. Parkın əsas obyektləri Buxara, Səmərqənd və Xivədəki memarlıq nümunələri olacaq. Qeyd edək ki, “Bakı Ağ Şəhər”də salınacaq bu park Azərbaycan və Özbəkistan dövlətləri və xalqları arasında tarixən mövcud olan qardaşlığın, dostluğun rəmzidir. Bu parkın salınması ilə xalqlarımızın mədəni əlaqələri daha da möhkəmlənəcək.



Goranboyda tikinti materialları istehsalı müəssisəsi istifadəyə verilib.

Azərbaycan Prezidenti İlham Əliyev iyunun 23-də Goranboy rayonunda "Konstralab Industries" QSC-nin tikinti materialları istehsalı müəssisəsinin açılışında iştirak edib. Goranboy rayonunun Qazanbulaq kəndində yaradılan müəssisə gips-karton, astar və üzlük gips məhsulları istehsal edəcək. Müəssisədə il ərzində 10 milyon kvadratmetr gips-karton lövhə, 150 min ton gipsəsaslı quru qarışıqlar istehsal olunacaq. Müasir avadanlıqla təchiz olunan müəssisədə istehsal edilən məhsulların yerli bazarda satışı ilə yanaşı, bir neçə ölkəyə ixracı da nəzərdə tutulur. İstehsal zamanı istifadə edilən əsas xammal - yerli gips daşı Azərbaycanın müxtəlif regionlarındakı yataqlardan tədarük olunacaq. Növbəti mərhələdə kalsit və perlit istehsalı xətlərinin qurulması planlaşdırılır ki, bu da məhsulların maya dəyərinin aşağı düşməsinə səbəb olacaq. Bununla yanaşı, gələcək inkişaf strategiyası çərçivəsində müəssisə fəaliyyətini genişləndirərək metal profil istehsalının təşkilini hədəfləyir. İnvestisiya dəyəri 33 milyon manat olan müəssisənin ümumi sahəsi 5 hektardır. Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm layihələrin icrası ölkə iqtisadiyyatının şaxələndirilməsinə, yeni iş yerlərinin açılmasına, xüsusilə sənayenin müxtəlif sahələrinin davamlı inkişafına böyük təkan verib.

XƏBƏRLƏR

Mətanət A Şirkətinin Müşahidə Şurasının sədri cənab Elxan Bəşirovun iştirakı ilə Özbəkistanın İnvestisiya, Sənaye və Ticarət Nazirliyi ilə "Mətanət A" şirkəti arasında əməkdaşlığa dair sənədlər imzalanıb.

Azərbaycanda səfərdə olan Özbəkistan biznes nümayəndələri ilə görüş çərçivəsində iqtisadi tərəfdaşlığın genişləndirilməsi istiqamətində bir sıra sənədlər imzalanıb.

Bununla əlaqədar İqtisadiyyat Nazirliyində keçirilmiş tədbirdə Mətanət A Şirkətinin Müşahidə Şurasının sədri cənab Elxan Bəşirovun iştirakı ilə Özbəkistanın İnvestisiya, Sənaye və Ticarət Nazirliyi ilə "Mətanət A" şirkəti arasında əməkdaşlığa dair sənədlər imzalanıb. Sənədlər müvafiq olaraq quru tikinti qarışıqları, gipskarton istehsalı layihələrini əhatə edir.

ATMİA

info@atmia.az www.atmia.az

XƏBƏRLƏR

Azərbaycanın meşə fondunda tikinti işlərinin aparılması qaydaları dəyişdirilib.
Prezident İlham Əliyev Milli Məclisin iyunun 3-də qəbul etdiyi Meşə Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Şəhərsalma və Tikinti Məcəlləsində, "İcra haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi haqqında qanunu təsdiqləyib. Bununla da Azərbaycanın meşə fondunda tikinti işlərinin aparılması qaydaları dəyişdirilib. Yeni qanun "Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" 30 may 2023-cü il tarixli qanunun icrası və qanunvericilikdə olan normalar arasında uyğunluğun təmin edilməsi məqsədilə hazırlanıb. Bu qanunla şəhərsalma və tikinti fəaliyyəti sahəsində müvafiq qərarların qəbul edilməsini təmin etmək məqsədi ilə Şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sisteminin (Sistem) elektron formada təşkil olunması və bu sahədə icraatın (tikintiyə icazə, tikintinin istismarına icazə, texniki şərtlərin verilməsi, məlumatlandırma icraatı çərçivəsində tikilmiş tikinti obyektləri barədə məlumatın təqdim edilməsi və sair) 2024-cü il yanvarın 1-dən həmin Sistem üzərindən elektron qaydada həyata keçirilməsi təsbit və təmin edilib. Beləliklə, qeyd olunan normativ hüquqi sənədlərin qüvvəyə minməsi ilə əlaqədar tikinti sahəsində icraatlar yalnız Sistemdə həyata keçirilir və bütün qərarlar, məlumatlar Sistemdə formalaşır və zəruri məlumatların poçtla göndərilməsinə ehtiyac olmadan şəhərsalma və tikinti fəaliyyətinin vahid informasiya təminatı sistemi vasitəsilə elektron qaydada verilməsi təmin edilir.

3 faydalı qazıntı yatağı hərraca çıxarılır.

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti yer təkindən istifadə ilə bağlı avqustun 7-də keçirəcəyi hərraca 3 faydalı qazıntı yatağı çıxaracaq. Bu barədə Dövlət Xidmətindən bildirilib.

Məlumata görə, bunlar, Balakən rayonundakı "Katexçay" qum-çınqıl yatağı (1 lot) , Oğuz rayonu "Muxas-Daşağılçay" qum-çınqıl yatağı (4 lot) və Oğuz rayonu "Nic" (1 lot) gil yataqlarıdır.

Başlanğıc qiyməti 1 725 – 16 100 manat arasında dəyişən yataqlara sahib olmaq üçün iddiaçılar müvafiq sənədlər toplusunu 31 iyul 2025-ci il saat 18:00-a qədər Bakı şəhəri, Ziya Bünyadov prospekti, 38C, 1969-cu məhəllə (Bakı KOB evi) ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş sənədlər açılmadan geri qaytarılacaq.

Hərracla bağlı məlumat almaq, xidmət haqqı və 10% beh ödəmək istəyənlər Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinə müraciət edə bilərlər. Hərrac Bakı şəhəri, Nizami rayonu, Xəlil Rza Ulutürk küçəsində keçiriləcək.

XƏBƏRLƏR

Bakıda qəzalı binalarla bağlı xüsusi Komissiya yaradılıb.

Bakı Şəhər İcra Hakimiyyətində Prezident İlham Əliyevin tapşırıq və göstərişlərindən irəli gələn məsələlərlə bağlı müşavirə keçirilib.

Müşavirədə bir sıra məsələlər müzakirə olunub, o cümlədən son vaxtlarda paytaxtda aparılan geniş miqyaslı abadlıq işlərindən söz açılıb.

Müşavirə zamanı paytaxtda şəhərin estetik görkəminə xələl gətirən, qəzalı vəziyyətdə olan və istismar müddətini bitirmiş yaşayış binaları ilə bağlı xüsusi Komissiya yaradılması qərara alınıb.

Bakının müxtəlif ərazilərində uzun illər əvvəl tikilən və müasir standartlara uyğun olmayan binaların hələ də mövcud olması nəzərə alınaraq Komissiyaya tapşırıq verilib ki, bununla bağlı məsələ tam araşdırılsın, xüsusi riskli zonalar müəyyən edilsin və bu problemin həlli yolları aidiyyəti qurumlarla birlikdə öyrənilsin.

Qeyd edilib ki, Bakıda mənzil fondu tam olaraq beynəlxalq standartlara uyğun səviyyəyə gətirilməlidir. Həmçinin müşavirədə paytaxtımızda piyada zonalarının genişləndirilməsi və yeni ərazilərdə belə zonaların yaradılması müzakirə olunub.

TƏDBİRLƏR

ATMİA üzvlərinin Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin səlahiyyətli nümayəndələri ilə görüşü keçirilib.

25.06.2025-ci il tarixində ATMİA üzvlərinin Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin səlahiyyətli nümayəndələri ilə görüşü keçirilib. Görüş zamanı tikinti sahəsində təhlükəsizlik standartları, normativ tələblər və nəzarətə dair üzvlərimizi maraqlandıran suallarına ətraflı cavablar verilib. Tikintidə qarşılaşılan çətinliklər diqqətlə dinlənildi, bir neçə məsələ yerində həllini tapdı. Maraqlı müzakirələrlə dolu olan tədbirin sonunda əlaqələndirici şəxslər müəyyən olunaraq, ATMİA və Agentlik arasında sıx əməkdaşlığa qərar verildi.

ATMİA

info@atmia.az www.atmia.az

TƏDBİRLƏR

ATMİA ölkənin tikinti sektorunun mötəbər BakuBuild 2025 sərgisinin rəsmi tərəfdaşıdır.

ATMİA ölkənin tikinti sektorunun mötəbər BakuBuild 2025 sərgisinin rəsmi tərəfdaşıdır. 14-16 oktyabr tarixlərində Baku Expo Mərkəzində keçiriləcək, beynəlxalq status daşıyan sayca 30-cu BakuBuild 2025 sərgisində ATMİA-nın tərəfdaş olaraq iştirakı və ATMİA üzvləri üçün təqdim olunacaq xüsusi imkanlar onlayn rejimində bu gün müzakirə olundu. BakuBuild 2025 sərgisində stend ilə iştirak etmək istəyən üzvlərimiz ATMİA ilə 10 iyul tarixinə kimi əlaqə saxlaya bilərlər:
050 265 36 34



ATMİA
info@atmia.az
www.atmia.az

TƏDBİRLƏR

ATMİA üzvləri SOCAR-ın “E-Tender” portalının rəsmi təqdimatında iştirak etdilər.

02 iyul 2025-ci il tarixində ATMİA üzvləri SOCAR-ın “E-Tender” portalının rəsmi təqdimatında iştirak etdilər.
SOCAR-ın Vitse-prezidenti Fuad Musayev açılış nitqi ilə tədbiri başladı. “E-Tender” portalının əsas məqsədi tender proseslərini rəqəmsallaşdırmaq və şəffaflığı artırmaqdır. Yeni sistem sektor iştirakçıları üçün daha effektiv və əlçatan tender mühitini vəd edir. Təqdim olunan rəqəmsal həllərin tikinti sektoruna verə biləcəyi töhfələr ATMİA üzvlərinin iştirakı ilə geniş şəkildə müzakirə olundu.

TƏDBİRLƏR

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən maarifləndirici vebinar təşkil olundu.

04 iyul 2025-ci il tarixində ətraf mühit mövzusunda onlayn maarifləndirici tədbir baş tutdu. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təşkil olunan vebinarın mövzusu İSO 1401 ətraf mühiti idarəetmə sisteminə olan tələbatlar, ətraf mühitə dair standartlar, sertifikatlaşdırma tələbləri və sahibkarlar üçün faydalar barədə ətraflı məlumatlar verildi.

Azərbaycan Respublikası
Ekologiya və Təbii Sərvətlər
Nazirliyi

ANONS

Hörmətli Sahibkarlar!

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 12 fevral 2021-ci il tarixli Fərmanı ilə İqtisadi Şura yaradılmışdır.
İqtisadi Şuranın 11 aprel 2025-ci il tarixli Qərarına əsasən Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması və biznes mühitinin yaxşılaşdırılması islahatları üzrə İşçi qrupu yaradılmışdır. ATMİA İdarə Heyətinin sədri Elxan Bəşirov sözügedən İşçi qrupunun tərkibində olan Sənaye sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Altqrupunun Koordinasiya Qrupuna rəhbərlik edir. Qeyd olunanları nəzərə alaraq tikinti sənayesi fəaliyyətinizdə qarşılaşdığınız maneə varsa, bununla bağlı təkliflərinizlə ATMIA ilə əlaqə saxlamağınız xahiş olunur:
Tel.: +99450 265 36 34; +99410 250 03 24
Email: info@atmia.az
www.atmia.az

ATMİA

info@atmia.az www.atmia.az

ANONS

Hörmətli Sahibkarlar!

“Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyası” (ATMİA) ilə “Azərbaycan Standartlaşdırma İnstitutu” PHŞ (AZSTAND) arasında yaxın günlərdə görüşün keçirilməsi planlaşdırılır. Görüş zamanı tikinti materialları sahəsində fəaliyyət göstərən şirkətlərin standartlaşdırma ilə bağlı qarşılaşdıqları sualların, problemlərin və təkliflərin müzakirəsi nəzərdə tutulur.

Bu məqsədlə, üzv şirkətlərdən xahiş olunur ki, AZSTAND ilə müzakirə olunmasını istədikləri mövzular, suallar və problemləri yazılı şəkildə bizimlə bölüşsünlər.

Tel.: +99450 265 36 34; +99410 250 03 24

Email: info@atmia.az

AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU

ATMİA

info@atmia.az www.atmia.az

SƏRGİ/KONFRANS/FORUM

Sərginin adı: Central Asia Tools & Hardware Show 2025

Tarixlər: 09 – 11 iyul 2025-ci il,

Məkan: "EXPO" Beynəlxalq Sərgi Mərkəzi, Astana (Qazaxıstan)

Construction Expo Astana tikinti sahəsində qabaqcıl həlləri təqdim etmək üçün unikal platformadır: materiallar, texnologiyalar, mülki və sənaye sektorları üçün sistemlər.

Sərginin adı: BUILD 4 ASIA 2025

Tarixlər: 15 - 17 iyul 2025-ci il,

Məkan: Honq Konq Konqres və Sərgi Mərkəzi, Honq Konq (Honq Konq)

Asiyada Tikinti, Elektrik Mühəndisliyi və Təhlükəsizlik Xidmətləri üzrə beynəlxalq sərgi.

Sərginin adı: EGYPT MINING FORUM 2025

Tarixlər: 15 - 16 iyul 2025-ci il,

Məkan: The Nile Ritz-Carlton, Qahirə (Misir)

Misir Mədən Forumu Misirin əsas mədənçıxarma, minerallar və əmtəə sahəsidir, əsas regional maraqlı tərəfləri, beynəlxalq mədən şirkətlərini və Misir və Şimali Afrikada iş görmək istəyən investorları bir araya gətirəcək.

Sərginin adı: INDONESIA SMART BUILDING SMART CITY WEEK 2025

Tarixlər: 16-18 iyul 2025-ci il,

Məkan: Cakarta Beynəlxalq Sərgisi (JIExpo), Cakarta (İndoneziya)

Ümumi şəhər fəaliyyətində, ağıllı nəqliyyatda, ağıllı bina sistemi və avtomatlaşdırmada İKT texnologiyasının tətbiqi üçün iki ildən bir keçirilən birinci dərəcəli ticarət sərgisi

TENDERLƏR

4 saylı Bakı DOST Mərkəzində təmir işləri ilə bağlı - TENDERLƏR KEÇİRİLİR.

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) 4 saylı Bakı DOST Mərkəzi üzrə iki ayrı layihə çərçivəsində açıq tender elan edib.

Birinci tender mərkəzin inzibati binasının giriş hissəsində yerləşən pilləkənlərdə məhəccərlərin quraşdırılması işlərinin satın alınmasını əhatə edir.

İkinci tender isə 4 saylı Bakı DOST Mərkəzində atriumun bərpa işlərinin satın alınmasına aiddir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Sücayət Əliyevadır (aparıcı mütəxəssis).
Email: sujayat.f.aliyeva@sosial.gov.az
Əlaqə telefonu:+994 12 525 50 26

TENDERLƏR

TİKİLMƏKDƏ OLAN OBYEKTLƏRİN MÜDİRİYYƏTİ TENDER ELAN EDİR.

Tikilməkdə Olan Obyektlərin Müdiriyyəti açıq tender elan edir. Elanda "Sağlam məhəllə" layihəsi çərçivəsində 3 rayonda açıq meydançaların tikintisi və avadanlıqlarla təchizatı işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Nərgiz Sadıqzadə, Satınalmalar üzrə baş mütəxəssis
Email: nsadiggintoom@gmail.com
Əlaqə telefonu: +994 50 879 22 28

TENDERLƏR

"AQROSERVİS" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ TENDER ELAN EDİR.

"Aqroservis" Açıq Səhmdar Cəmiyyəti açıq tender elan edir.
Elanda Zəngilan rayonunun Ağalı kəndində pilot layihə çərçivəsində 110 ha ərazidə daxili suvarma sisteminin çəkilməsi işləri üzrə layihə-smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Aytən Həsənova, Baş mütəxəssis
Email: aytan.hasanova@aqroservis.gov.az
Əlaqə telefonu: +994 50 234 48 80

TENDERLƏR

"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.

"Əsaslı Tikinti Və Təchizat" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Elanda Hökümət Evinin binasının müxtəlif mərtəbələrində yerləşən Mədəniyyət Nazirliyinin otaqlarının cari təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elmir Murquzov, Satınalma mütəxəssisi
Email: tender@culture.gov.az
Əlaqə telefonu: +994 12 565 01 47 (448)

TENDERLƏR

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT AGENTLİYİ TENDER ELAN EDİR.

Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Agentliyi açıq tender elan edir.
Elanda ƏSHABİ-KƏHF Ziyarətgahı Dini Mədəni Abidə Kompleksində tikintisi planlaşdırılan Qonaq Evinin layihələndirilməsi və smeta sənədlərinin hazırlanması xidmətinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Həsən Allahverdiyev, Aparıcı məsləhətçi
Email: h.allahverdiyev73@gmail.com
Əlaqə telefonu: +994 60 528 00 01

TENDERLƏR

S.Ə.DADAŞOV ADINA ELMİ-TƏDQİQAT VƏ LAYİHƏ-KONSTRUKTOR İNŞAAT MATERİALLARI İNSTİTUTU TENDER ELAN EDİR.

S.Ə.Dadaşov Adına Elmi-tədqiqat Və Layihə-konstruktor İnşaat Materialları İnstitutu açıq tender elan edir.
Elanda Qarabağ regional müayinə-sınaq laboratoriya binasının təmiri işlərinin satınalınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Budaqov Orxan, Mütəxəssis
Email: info@rdibm.az
Əlaqə telefonu: +994 55 979 99 65



www.atmia.az